AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

# RİSALƏ

## *Elmi araşdırmalar jurnalı*

# 1-2022(22)



**Bakı – "Elm və təhsil" – 2022**

**Azərbaycan Milli Elmlər Akademiyası**
**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Elmi Şurasının 14 iyun 2022-ci il tarixli (protokol № 6)**
**qərarı ilə çap olunur**

*Baş redaktor:*
**Rafael Hüseynov,**
***akademik***

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Xatirə Bəşirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan**
**Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan**
**Paşa Kərimov, filologiya üzrə elmlər doktoru, dosent, AMEA Əlyazmalar İnstitutu, Azərbaycan**
**Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə**
**Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ**
**Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya**
**Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ**
**Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya**
**Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ**
**Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya**
**Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,**
**Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası**
**Şodimaxammad Sufiyev, filologiya üzrə elmlər doktoru, professor,**
**Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan**
**Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan**
**Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan**
**Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət**
**Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan**
**Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya**

**Risalə. Elmi araşdırmalar jurnalı. № 1 (22)**
**Bakı, “Elm və təhsil” nəşriyyatı, 2022, 144 s.**

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər “risalə” adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə “Risalə” adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir. "Risalə" elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

**© AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2022**

# Oxuyacaqlarınız



## KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ

**Hüseynov Rafael.** Nizami Gəncəvini qorumaq yolunda Mübariz Əlizadənin mübarizələri ........ 7
**Quliyeva Ruziyə.** Nizami Gəncəvi məsnəvilərində merajnamələr ........ 27
**Mustafayeva Nailə.** Seyid Əzim Şirvaninin müxəmməsləri ........ 33
**Nuriyeva Kəmalə.** Klassik qəhrəmanlıq dastanlarında hüzn süjeti ........ 51
**Zeynalova Elnarə.** Xaqani Şirvaninin nəsri və şairin yeni əlyazması ........ 65

## YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES

**Qədirova Afət.** Nazim Hikmət teatr labirintində ........ 75
**Məcidli İlqar.** Tomas Qoltsun "Azərbaycan gündəliyi" əsərində Qarabağ münaqişəsi və qaçqınlar problemi ........ 85
**Məcidova Türkan.** Hüseyn Cavid yaradıcılığında osmanlı elementləri və qəliz ərəb-fars tərkiblərindən daha təmiz azərbaycancaya keçid ........ 95
**Mustafayeva Göyərçin.** Əhməd Cavadın tərcüməçilik fəaliyyətində orijinallıq ... 103
**Verdiyeva Təranə.** Əli Razi Şamçızadənin yaradıcılığında Gəncənin mədəni və ictimai mühitinin satirik-bədii ifadəsi ........ 116

## TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN QORUNMASI VƏ TƏDQİQİ. MUZEYŞÜNASLIQ

**Baxşəliyev Rəhman.** XIX əsr Qarabağ mədəni-ədəbi mühiti və Mirzə Fətəli Axundov ........ 125
**Əhədov Təbriz.** Təbriz tarixi-mədəni fenomen kimi və onun Cənubi Azərbaycan ədəbiyyatında təsviri ........ 133

**UOT 821.512.162**

**Təranə VERDİYEVA**
Azərbaycan Milli Elmlər Akademiyası
Gəncə Bölməsi

# ƏLİ RAZİ ŞAMÇIZADƏNİN YARADICILIĞINDA GƏNCƏNİN MƏDƏNİ VƏ İCTİMAİ MÜHİTİNİN SATİRİK-BƏDİİ İFADƏSİ

**Açar sözlər:** Gəncə, humanizm, şeir, ideya, mühit
**Keywords:** Ganja, humanism, poetry, ideas, environment
**Ключевые слова:** Гянджа, гуманизм, поэзия, идеи, среда

## Giriş

Əli Razi Şamçızadə 1886-cı ildə Gəncə şəhərinin Zərrabi məhəlləsində şam hazırlayan Məşədi Yəhyanın ailəsində dünyaya gəlmişdir. Əli Razinin babası Abdulla da şam düzəldib satarmış. Bu sənəti o da atası Kərbəlayi Məhəmməddən öyrənibmiş. Deyilənə görə, Kərbəlayi Məhəmmədin atası da şam düzəldib satarmış. Buna görə də Əli bu sənəti özünə soyad kimi qəbul etmişdir. Razi soyadını bir ailə ənənəsi olan şamçılıq sənətindən, ulu babalarından yadigar qalan bir məsləkdən götürmüşdüsə, şairlik qabiliyyətini, şeirə, sənətə aşiqliyini ulu nənəsi Şəmamədən almışdır. Onun ulu nənəsi Kərbəlayi Məhəmmədin arvadı Şəmamə də şairə olub "Ağlar" təxəllüsü ilə şeirlər yazarmış. Əli Razi özü 1923-cü ildə "Kommunist" qəzetində dərc olunan "Ağlar", yaxud Şəmamə xanım" adlı məqaləsində şairə nənəsini belə təqdim edir: "Unudulmuş yarpaqların və pozulmuş səhifələrin arasında bütün ömrünü iniltilər və sızıltılar ilə keçirmiş, öz əllərinin əməyi ilə balalarını saxlamış, şahlara, şahzadələrə və xanlara etina etməmiş bir şairəmiz daha varmış ki, o da Şəmamə xanım "Ağlar" təxəllüslü qadın idi" [4, s.110]. Bir cümlədə Razi sanki şairənin bütün ömrünü oxucuya təqdim etmiş, eyni zamanda təxmini olaraq şairə Şəmamənin bədii yaradıcılığının mövzusunu da oxucuya nişan vermişdir. Şəmamə xanım haqqında məlumatlar bunu deməyə imkan verir ki, bəlkə də Gəncədə Məhsəti Gəncəvi, Rəziyyə Gəncəvi, Siti Gəncəvi və başqa böyük şairələrimizin yaratdığı ədəbi mühitdə yetişən, yazıb-yaradan, lakin adı ədəbiyyatımıza düşməyən neçə-neçə istedadlı şairə qadınımız olmuşdur.

XVIII əsrdən üzü bəri bu ailənin nümayəndələri şam düzəldib satmaqla güzəran keçirdiklərinə görə həmin nəslə Şamçılar deyilirdi. Lakin Əlinin atası Məşədi Yəhya kişi oğlunu bu məsləyin davamçısı deyil, ruhani görmək istəyirdi. Bu məqsədlə Əlini "Mədrəseyi-ruhaniyyə"yə qoyur. Əli isə bu sənətə rəğbət bəsləmir, gimnaziyada oxumaq arzusunda olur. Əli mədrəsədə ərəb, fars dillərini öyrənir. Mədrəsəni bitirdikdən sonra isə Gəncədə fəaliyyət göstərən yeni üsullu məktəblərdən olan "Məktəbül xeyriyyə"də təhsilini davam etdirir. O dövrdə müsəlmanlara dünyəvi təhsil verən bu məktəbdə Hüseyn Cavid, Mirzə Abbas Abbaszadə kimi pedaqoqlar dərs deyirdilər. Seminariyanı bitirən gənclər dörd dil öyrənir, Qurani-Kərimi mənimsəyirdilər. 1900-cü ilədək milli məktəb, daha sonra isə rus-tatar (Azərbaycan) məktəbi kimi fəaliyyət göstərən təhsil ocağında rus dilini öyrənən Əli rus ədəbiyyatı ilə maraqlanır və bu dildə çap olunmuş kitablarla biliyini artırırdı. Gənc ikən kiçik şeirlər yazan Əli Razi sonralar Türkiyədə təhsil almış Abdulla Tofiq Surla tanış olur.

Abdulla Tofiq ona şeirlərindəki nöqsanları göstərir, eyni zamanda dünyagörüşünün artmasında, bir növ, müəllimlik edir.

Gəncədə Abdulla Tofiq Surun rəhbərliyi ilə fəaliyyət göstərən "Ədəbiyyat və sənayeyi-nəfis" cəmiyyətində ədəbiyyat və incəsənət əsərləri müzakirəyə qoyulur, keyfiyyətli əsərlər mükafatlandırılırdı. Dərnəyin üzvlərindən olan gənc Əli Razi də elə ilk şeirlərini burada müzakirəyə təqdim etmişdi.

**Əli Razi yaradıcılığı və ictimai ideyalarındakı dönüş**

Razi yaradıcılığa lirik şeirlərlə başlasa da, daha sonralar tənqidi-realist mövzulu satirik şeir və publisist əsərlər yaratmaq yolunu tutmuşdur [5, s.271].

1906-cı ildə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı gənc yazarların əsərlərinin çapı üçün gözəl fürsət olmuşdu. Elə həmin ildə jurnalın 14 iyul tarixli 15-ci nömrəsində Əli Razinin ilk satirik şeiri nəşr edilmişdi [4, s.9]. Ümumiyyətlə, 1906-cı ildən 1937-ci ilə qədər Əli Razinin "Molla Nəsrəddin" jurnalı ilə bərabər onlarla mətbuat orqanında ("Həyat", "İrşad", "Zənbur", "Tuti", "Açıq söz" və s.) çox sayda şeirləri, publisist məqalələri dərc edilmiş, kitabları çapdan çıxmışdır. Razi şeirlərində, publisist yazılarında hər zaman dövrün ədalətsizliyinə, haqsızlığına, cəhalətə, insanların başını aldadan yalançı ruhanilərə qarşı çıxır, qadın azadlığını ön plana çəkirdi. O, bütün bu problemlərə və onları qəsdən yaradan insanlara qarşı "Heyvərə", "Fartdax xala", "Bambılı", Xanbacı", "Düdük" və s. gizli imzalarla çıxışlar etsə də, nəhayət, ona qarşı avam kütlələrin hücumu başlamış və şair çoxsaylı təqiblərə məruz qalmışdı.

Əli Razi 1906-cı ildə Tiflisdə "Molla Nəsrəddin" jurnalının əməkdaşları C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Qəmküsar və Q.Şərifzadə ilə görüşüb tanış olmuşdu [2, s.184]. Tiflisdə mollanəsrəddinçilərlə görüş Əli Razini ictimai ideyaları daha dərindən dərk etməyə imkan vermişdi. Jurnalla yaxınlıq Əli Razinin təqib olunmasını gücləndirmişdi. O, jurnalda müxtəlif imzalarla çıxış etsə də, təqiblər səngimirdi. 1907-ci ildə hücumlar təhlükəli bir səviyyəyə çatanda o, məcbur olaraq Tiflisə qaçıb "Molla Nəsrəddin"ə pənah aparmışdı. Tiflisdə Ömər Faiq Nemanzadə, Qurbanəli Şərifov, Əliqulu Qəmküsar, Sabirlə bir daha görüşmüş, həmin il "Təzə həyat" jurnalında gəncəlilərə təsir edə biləcək satirik şeirlər yazmışdır.

**Humanist ideyalı şairin yaradıcılığında Gəncə**

Əli Razinin humanist ideyalı şeirləri hər zaman ədalətsiz üsuli-idarənin üstündən xətt çəkdiyi sadə xalqın mənafeyinin qorunmasına, zülmə, haqsızlığa məruz qalan qadınların susdurulmuş səslərinin eşidilməsinə, cəmiyyəti narahat edən siyasi-ictimai məsələlərin işıqlandırılmasına xidmət etmişdir. Bu çıxışlarına görə hakim qüvvələr, rəsmi inzibati orqanlar, yerli polis idarəsi Razini susdurmaq üçün Gəncədən uzaqlaşdırmış və xalqdan ayırmağa çalışmışlar.

1904-cü ildə rus qoşunları ilə general Sisianovun Gəncəni işğal etməsinin 100 illiyinin keçirilməsi ilə bağlı qərar qəbul ediləndə Əli Razi yazdığı "100 il" adlı satirik şeirinə görə məhkəməyə çağırılmış və açıq-aşkar çar üsuli-idarəsini tənqid etdiyinə görə əziyyətlərə, zorakılığa məruz qalmışdır. Əli Razi 1936-cı ildə çapdan çıxan "Dabanı çatdaq xala" adlı kitabında nəşr olunan şeirində gəncəlilər üçün qanlı-qadalı olan həmin hadisəni belə ifadə edir:

Bəli, yüz il iləri "Sisyanov" almış buranı;
Vurdurub hər ürəyə süngü ilə yüz yaranı.
Kəsdirib arvad-uşaq, tapdaladıb mal-qaranı,
Oldu kef içkisi knyaz-boyara al qanımız [3, s.65].

1905-ci il inqilabı bütün gənclər kimi, Əlini də vətənin ictimai dərdlərinə şərik olmağa vadar etmişdi. Əli Razi 26 dekabr 1905-ci ildə yazdığı “Qırhaqır” adlı şeirində inqilab vaxtı Gəncəni təsvir edərək deyir:

Min doqquz yüz beşinci il Gəncədə,
Noyabrda qudurdu el Gəncədə,
Axıtdılar qırmızı sel Gəncədə
Türk-erməni bir-birini qırhaqır [3, s.117].

Şair inqilabın Gəncədə alovlandığı ilk gündən başlayaraq baş verənləri əks etdirərkən tarixləri də dəqiq söyləməyi unutmur. Birinci gün, ikinci gün, üçüncü gün deyərək hadisələri sıralayır və həmin dövrdə şəhərdə yaranan hərcmərcliyi açıqlığı ilə oxucunun diqqətinə çatdırır.

Noyabrın on səkkizində gündüz
Sərildi canlar küçələrə dümdüz;
Ac-yalavaclar öldürüldü yüz-yüz,
Yağış kibi güllə yağır şırhaşır.

Günortadan sonra bazar talandı,
İkinci gün Pasaj oda qalandı.
Tülüngülər Tin içini dolandı –
Qurşun uçur quşlar kibi pırhapır.

Üçüncü gün töküldülər qaçaqlar,
Qollarını çirmələdi qoçaqlar.
Cəllada döndü neçə qolçomaqlar,
Başladılar atışmanı tırhatır [3, s.117].

Şair şeirdə baş verən hadisələri nəql edərkən Gəncədə müxtəlif yer adlarını da qeyd edir ki, bu da bizə həmin dövr Gəncədə olan ərazilərin adlarını öyrənməmizə yardım edir. Məsələn, Əli Razinin “Pasaj”, “Tin” deyə adını çəkdiyi yerlər, şairin özünün qeydinə əsasən, “Gəncənin bazar hissəsinin sabiq adlarıdır” [3, s.116].

Hər bəndin sonunda məzmuna uyğun olaraq işlədilən, eyni zamanda şeirin adı ilə səsləşən “şırhaşır”, “tırhatır”, “zırhazır” və s. ifadələr şeirin poetik gücünü artırır və tragikomik fon yaradaraq oxucunun diqqətini cəlb edir. Beləliklə, şair şəhərdə hökm sürən özbaşınalıq və hərcmərcliyi təsvir edərkən baş verən hadisələrə əsl satirik kimi yanaşır.

Əli Razi Şamçızadə 1909-cu ildə yazdığı “Molla Nəsrəddinə” adlı şeirinə görə Gəncədən sürgün edilir. Bu, şairin Gəncədən ilk sürgünü idi. Şeirdə Gəncədə hərcmərclik yaradanlar, müftə yeyənlər, şəhəri talayanlar həcv edilmişdir.

Yazma, amandı, “Molla”!
Halım yamandı, “Molla”!
Gəncə talandı, “Molla”!
Dərdə qalandı, “Molla” ! [3, s.72]

Şair "Molla Nəsrəddinə" adlı bu şeirin sonunda "100 il" satirik şeirinə görə ona qurulan və üç gün çəkən məhkəmə, eyni zamanda məhkəmə vaxtı gördüyü zorakılığı əks etdirərək yazır:

Çıxdı belə bir qərar:
"Gəncədən olsun kənar!"
Başdan edib sovdular,
Peysərimi ovdular,
Nifrət edib qovdular,
El yavalandı, "Molla"! [3, s.74]

Şair "Molla" deyərkən "Molla Nəsrəddin" jurnalını nəzərdə tutur və ona qarşı olan münasibətin eynisinin "El yavalandı" deyərək sadə xalqa da edildiyini diqqətə çatdırır.

Əli Razi 1910-cu ildə yazdığı "Gəncədə" adlı şeirində isə həmin dövrdə şəhərdə içki və qumarın dəbdə olduğunu, insan canının pula satıldığını qeyd edir.

İstəyəsən qəsd edəsən bir cana:
Bir cürə qiymət qoyulur hər qana;
İyirmi beş-əlli – baxır insana...
Min bəyə; beş min qoyulubdur xana.
Hər cana qoymuşlar əyar Gəncədə.
Fələ canı sanki xiyar Gəncədə [3, s.43].

Şeirdə həmçinin qadına olan hörmətsizlik, qadına yönəlmiş şiddət də əks olunur.

Bunlar olur köhnə dəbin qurbanı...
İplə boğurlar Saranı, Zəhranı;
Öldürülür Fatma, Nigar Gəncədə
Qan ləkə – evlər və divar Gəncədə [3, s.44].

Əli Razi hər bəndin sonunda "Gəncədə" deyərək həmin dövrdə şəhərdə hökm sürən ictimai vəziyyəti gözlər önünə sərir, insanların, xüsusilə qadınlar və aşağı təbəqə adamların ürəkdağlayan əhvalını oxucuya çatdırmağa çalışır.

**Ədəbi və ictimai fəaliyyətini xalqa xidmətə həsr edən şair**

Maarifpərvər şair Əli Razi Şamçızadə ədəbi fəaliyyətlə yanaşı pedaqoji işlə də məşğul olmuş və 1922-1930-cu illərdə Gəncə Pedaqoji və Kənd Təsərrüfatı texnikumlarında müəllim işləmişdir. Daha sonra 1935-1937-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının Gəncə şöbəsində məsul katib vəzifəsində çalışmışdır [1, s.105]. O dövrdə də Yazıçılar İttifaqı (Yİ) ətrafına elə şair və yazarları toplamışdı ki, onların qələmləri, düşüncələri xalq üçün, onun arzu və istəklərinin, narahatlığının işıqlandırılması üçün çalışırdı. Onlar Azərbaycan ziyalıları idi, onlar xalqın, azadlığın səsi idi. Ancaq çox təəssüf ki, bu səsi yayılmağa, qələmi yazmağa qoymurdular. Əli Razini də qoymadılar. O, Yİ-nin məsul katibi kimi ancaq üç il fəaliyyət göstərdi. Sovetlərin dəhşətli burulğanı daha bir ziyalını içinə çəkib məhv etdi. Gəncədəki ictimai vəziyyəti əks etdirərkən bir tərəfdən də eyhamla xalqa, onun ziyalısına qarşı yönəlmiş zülmü diqqətə çatdıran Əli Razi humanist ideyalı fikirlərinə

görə təxribatçılıqla burjua-millətçi təşkilatın üzvü kimi qələmə verilərək 1938-ci ildə güllələndi.

**Nəticə**

Azərbaycan ədəbiyyatında mollanəsrəddinçi kimi tanınan Əli Razi Şamçızadənin satirik şeir tariximizdə özünəməxsus yeri vardır. Onun el ədəbiyyatı motivlərinə söykənən əsərləri dil və üslub baxımından sadə və aydın olmaqla yanaşı, həm də təsirlidir. Tənqidi realist ədəbiyyat və satirik mətbuatımızın tarixində xüsusi yeri olan humanist ideyalı istedadlı şair və publisist Əli Razi Şamçızadənin yaradıcılığı XX əsrin əvvəllərində Gəncənin istər ədəbi-mədəni, istərsə də ictimai-siyasi mühitinin öyrənilməsində mühüm rol oynayır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Abbas Səmədov, Əli Əliyev. Maarifpərvər Gəncə müəllimlərinin ədəbi-pedaqoji fəaliyyəti (1830-1920). Gəncə: Gəncə İcarə Nəşriyyat Poliqrafiya Birliyi, 1999, 179s.
2. Abbas Zamanov. Müasirləri Sabir haqqında. Bakı: Uşaqgəncnəşr, 1962
3. Ə.Razi Şamçızadə. Dabanı çatdaq xala. Bakı: Azərnəşr, 1936
4. Ə.Razi Şamçızadə. Nalələrim, fəğanlarım. Bakı: “Elm” nəşriyyatı, 1992
5. Firidun Hüseynov. Molla Nəsrəddin və mollanəsrəddinçilər. Bakı: “Yazıçı”, 1986

***Tarana VERDIYEVA***

**The satire-artistic expression of Ganja's cultural and public environment in the creative works of Ali Razi Shamchizadeh**

***S u m m a r y***

The article discusses the life and work of Ali Razi Shamchizadeh, a poet with a humanistic idealogy who lived and worked in Ganja in the early twentieth century. The research also provides information about Razi's great-grandmother, the poetess lady Shamama. This information has been studied on the basis of examples taken from Ali Razi's own creative work. The initial education of the poet and the education system of the Russian-Tatar (Azerbaijani) school in Ganja at that time, as well as professional teachers who taught there have been indicated in this article. The article also draws attention to the influence of the prominent enlightened poet Abdullah Sur on Ali Razi's activities and worldview. It also discusses Ali Razi Shamchizadeh's relation with Molla Nasreddin journal and its professional members, and the turning point that this school of satire had created in the poet's work, as well as in his views on public ideas.

Ali Razi's poems with humanistic ideals have always served to protect the interests of ordinary people, to hear the silenced voices of women who have been subjected to oppression and injustice, and to shed light on political and social issues of society's concern. The examples of the poet's literary heritage have been discussed in the article. Additionally, his poems which reflect the socio-political, cultural, and scientific environment of Ganja have been analyzed in terms of content and ideas. The article also focuses on the creative direction of the poet's artistic work, when he was the executive secretary of the Union of Writers, dedicating his literary and public activities to the service of people. Therefore, brief information about the life period of the poet, who was persecuted by the tsarist regime and ended by shooting as a result of this direction has been underlined.

In conclusion, the importance of the literary heritage of Ali Razi Shamchizadeh in the history of Azerbaijani literature as a poet-publicist and in the study of the socio-political environment of Ganja has been brought to attention.

*Тарана ВЕРДИЕВА*

**Сатиро-художественное выражение культурной и общественной среды Гянджи в творчестве Али Рази Шамчизаде**

***Р е з ю м е***

В статье освещаются вопросы о жизни и творчестве Али Рази Шамчизаде, поэта-гуманиста, жившего и творившего в Гяндже начала XX века. Здесь приводятся и сведения о прабабушке писателя, поэтессе Шамаме ханум. Эта информация иллюстрируется примерами из трудов Али Рази. Помимо этого автор рассматривает ряд интересных моментов, касающихся биографии и творчества писателя: система образования в Гяндже; деятельность русско-татарской (азербайджанской) школы и её добросовестных учителей. В статье акцентируется положительное воздействие видного поэта-просветителя Абдуллы Сура на мировоззрение и деятельность Али Рази. В ней обсуждаются также творческие отношения Шамчизаде с журналом «Молла Насреддин», членами редколлегии. Безусловно влияние данной школы сатиры на творчество и социальные взгляды писателя.

Гуманистические идеалы в стихах Али Рази отвечали интересам и чаяниям простых людей, испытывающих гнёт и несправедливость женщин. Тем самым проливают свет на волнующие общество социальные и политические проблемы. Анализ художественных образцов с целью определения их идейно-тематической наполненности в какой то степени отражает и культурно-научную среду Гянджи того времени.

Будучи ответственным секретарём Союза писателей Азербайджана Али Рази вёл активную общественно-литературную деятельность во имя интересов народа. Результатом литературоведческого анализа образцов творчества писателя является формирование у читателя сведений о судьбе подвергавшегося гонениям и несправедливо казнённом человеке.

В итоге раскрывается значимость литературного наследия Али Рази Шамчизаде, известного в азербайджанской литературе как поэт-публицист, который внёс определённую лепту в изучение общественно-политической и культурной среды Гянджи своего времени.